Bytyn ꝍlkələrin proletarlarь, birləşin!

Nysxəsi 10 qəpik

# Qommunist

IJUN 21 1936-nçь IL Bazar
№ 142 (4768)
XVI IL davamь

Azərbajçan Q(b)F MQ və BQ, Az. MIQ və BŞ orqanь

# Sənətkar ɵlməz

Bugynky kibi jadьmdadьr.

Gɵzymy səhnənin janьndakь qapьja dikib durmuşdum. Qorki oradan сьqaçaqdь.

Mən bu qapьdan, başьnda italija şljapasь, əlində səjjah aqaçь, hər zaman qəzetlərin çəkdiji kibi qoltuqunda çild - çild kitablar olan bir Maqsim Qorki gɵzləjirdim.

Ançaq olmadь.

Qapь acьldь. Uzun, arьq, lakin mə'nalь, dərin nəzərlərə, geniş alьna malik bir adam bir az belini əjərək icəri girdi.

Bytyn salon ajaqa qalqdь. Bɵjyk bir şenlik gurultusu qopdu. O qədər əl caldьq ki, bu alqьşlardan bir az utanan Maqsim Qorki əlini juqarьja qaldьrdь «bəsdir» işarəsini verdi.

Qorkini ilk və son dəfə mən o zaman gɵrdym.

Bundan sonra o ɵlməz ədəbijjat ustasьnьn sevimli xəjalь hər zaman gɵzlərimin ɵnyndədir.

Colaq car Rusijjəsini qarьş - qarьş dolaşmьş, gylən dənizlərin hər bir qəmli ləpəsinə min bir hekajə jazmьş Ural daqlarьndan Italija Sorrentosuna qədər bytyn joqsul xalqьn yrək dərdini tərənnym etmiş şahin jazьсь Qorki ɵlə bilərmi?...

Hər bir sətrində dərin mə'nalar gizli, sɵzlərdən, kəlmələrdən mə'na abidələri jaratmьş bɵjyk jazьсь mə'nasьz bir ɵlymlə aramьzdan gedə bilərmi?

Joq! Onun mənim qəlbimdə tikilmiş bɵjyk hejkəli ɵlymlərin sьndьra biləçəji daşdan japьlmamьşdьr. Mənim bɵjyk ustam daima jaşajaçaqdьr!

S. RƏHMAN.